**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ELŞƏN ƏSGƏR OĞLU BAYRAMZADƏ**

# QLOBALLAŞMA VƏ İNFORMASİYA CƏMİYYƏTİ: QARŞILIQLI TƏSİRİN DİNAMİKASI (SOSIAL-FƏLSƏFI TƏHLIL)

**İxtisas: 7207.01 - Sosial fəlsəfə**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2013**

Dissertasiya işi AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Hüseynov Sakit Yəhya oğlu**<br>**fəlsəfə üzrə elmlər doktoru** |
| **Rəsmi opponentlər:** | **Mustafayev Azər Xoşbəxt oğlu**<br>**fəlsəfə üzrə elmlər doktoru, professor** |
| | **Hacıyev Zeynəddin Camal oğlu**<br>**fəlsəfə üzrə elmlər doktoru, professor** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (Fəlsəfə və sosial psixologiya kafedrası)** |

Müdafiə "_22__" 10___ 2013-cü il saat _____ Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı-Az-1143, Hüseyn Cavid prospekti, 31. AMEA Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ________ 2013-cü ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının**
**elmi katibi fəlsəfə üzrə fəlsəfə doktoru:** **S.A. Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Cəmiyyətin inkişafında hər bir mərhələ, bu inkişafı şərtləndirən və sosial inkişafı stimullaşdıran bəzi proseslərlə səciyyələnir. Müasir dövrdə belə proseslər qloballaşma və informasiya inqilabıdır. Bu proseslərin səciyyəvi xüsusiyyətləri onların bəşəriyyətin hansısa regionunu, və yaxud hansısa kontinenti deyil, bütövlükdə, Yer kürəsini əhatə etməsidir. Məhz bu səbəbdən birinci proses qloballaşma, yəni bütün dünyanı əhatə edən qlobal proses, ikincisi isə dünyanı inqilabi şəkildə dəyişən və transformasiya edən informasiya inqilabı adlandırılır. Bu iki dünyəvi prosesin qarşılıqlı təsir və əlaqələrinin araşdırılması problemi xüsusi elmi maraq doğurur. Belə ki, məhz bu proseslərin nəticəsində bəşəriyyətin təkcə müasir vəziyyəti deyil, həm də onun gələcəyi müəyyənləşir.

Qloballaşma və informasiya inqilabının bilavasitə təsiri ilə dünya birliyinin geopolitik strukturunda baş verən böyük dəyişikliklər və sosial-siyasi transformasiyalar bir tarixi dövrün bitməsi və müasir dünyanın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasından xəbər verir. Əvvəla, informasiya-telekommunikasiya inqilabının nəticəsində dünyanın sənayecə inkişaf etmiş regionlarında industrializmdən postindustrializmə (informasiya cəmiyyətinə) keçid baş verməkdədir. İkincisi, bu inqilabla üst-üstə düşən və onunla şərtlənən sosial-siyasi paradiqmaların əvəzlənməsi müşahidə olunur. Üçüncüsü, Qərb rasionalist sivilizasiyasının əsas parametrlərinin hakim mövqedə olduğu avropamərkəzçi dünyanın yerində ümumbəşəri sivilizasiya yaranır. Dördüncüsü, SSRİ və sosialist düşərgəsinin dağılması ilə soyuq müharibənin törətdiyi infrastruktura əsaslanan ikiqütblü dünya düzəni yerini çoxqütblü dünya düzəninə verir.

Qloballaşma dinamik, sürətlə inkişaf edən prosesdir. Onu nəzərə almadan hər hansı dövlət xarici siyasətini və inkişaf strategiyasını nə proqnozlaşdıra, nə də günün vacib tələblərinə uyğun gerçəkləşdirə bilər. Ona görə də bu proses statik formada yox, bütövlükdə məhsuldar qüvvələrin xarakter və keyfiyyətini, sivilizasion identikliyi dəyişən informasiya inqilabı ilə qarşılıqlı təsir və əlaqələrdə nəzərdən keçirilməlidir.

Mövzunun aktuallığını şərtləndirən digər amil qloballaşma və informasiya inqilabının sivilizasiyalararası münasibətlərə təsiri ilə əlaqəlidir. Belə ki, postindustrial transformasiya, qlobal informasiyalaşma və dünyanın sürətlə qloballaşması bir tərəfdən millət- dövlətlərin optimal inkişafı üçün geniş imkanlar yaradırsa, digər tərəfdən onların malik olduğu sivilizasion identikliyə təhlükə törədir. Qloballaşma və informasiya inqilabının təsiri nəticəsində gələcəkdə aşağıdakı ssenarilərin gerçəkləşməsi mümkündür: 1) sivilizasiyaların toqquşması; 2) sivilizasiyaların transformasiyası nəticəsində universal sivilizasiyanın yaranması. Birinci ssenarinin qlobal miqyasda gerçəkləşməsi bir çox lokal sivilizasiyaların nüvə silahına malik olduğu şəraitdə bəşəriyyətin özünüməhvi olardı. Ssenarinin «esxatoloji ruhu» ona xüsusi diqqəti şərtləndirir. Qlobal problemləri araşdıran tədqiqatçılar daha çox ayrı-ayrı dövlətlər arasındakı münasibətlərdə özünü büruzə verən xaosun artmasından danışırlar. «Yeni ümumdünya xaosu», «nizamsız dünya» haqqında çoxsaylı tədqiqatlar aparılır.

İkinci ssenarinin gerçəkləşməsi daha arzuedilən və demək olar ki, daha realdır. Cəmiyyətlər arasında münaqişələrə baxmayaraq, bu cəmiyyətlərə məxsus bəzi insan və yaxud insanlar qrupunu birləşdirən, bir araya gətirən mexanizmlər də mövcuddur. Belə mexanizmlərdən biri hər bir cəmiyyətdə mövcud olan və qlobal inteqrasiyaya daha açıq elm adamları və intellektual təbəqədir. Onların məşğul olduqları problem sahəsi bir millətin, mədəniyyətin, sivilizasiyanın «daxili» işi deyil. Artıq bu gün, postindustrial mərhələyə keçid ərəfəsində insanlar arasında belə universal əlaqələr daha geniş yayılmağa başlayır. Və o daha çox peşəkar və intellektual yaxınlıq əsasında qurulur.

Qlobal texnoloji məkanın formalaşması ölkə və lokal sivilizasiyalar arasındakı texnoloji uçurumu aradan qaldırmasa da onu yeni müstəviyə keçirir. Uçurumun aradan qaldırılması üçün ayrı-ayrı ölkələrin cəhd və səyləri kifayət deyil. Bunun üçün bütün qlobal texnoloji sistemin fəaliyyət mexanizmləri və prinsiplərinin dəyişdirilməsi, onun postindustrial cəmiyyətin xarakterinə adekvat olan məqsədlərə doğru yönləndirilməsi zəruridir. Bu isə öz növbəsində lokal sivilizasiyalar və ölkələr arasında qarşılıqlı anlama və qarşılıqlı təsirin başqa, keyfiyyətcə yeni səviyyəsini, texnoloji sferada qarşılıqlı fayda və bərabərhüquqlu əməkdaşlığa tədrici keçidi tələb edir.

XXI əsrdə qlobal problemlərin kəskinləşməsi və transformasiya proseslərinin mürəkkəbliyi nəticəsində meydana çıxan ziddiyyətlər, sivilizasiyalar arasında qarşılıqlı dialoqun əsrlər boyu formalaşmış modelləri çərçivəsində həll oluna bilmir. Qloballaşma və transformasiya prosesləri sivilizasiyalar arasında qarşılıqlı münasibətlərin dialoq və

əməkdaşlığa əsaslanmış yeni modellərinin yaradılmasını tələb edir. Fikrimizcə, bunu XXI əsrin sivilizasion imperativi adlandırmaq olar.

Maddi və mənəvi mədəniyyətin ictimai inkişaf pillələri ilə yüksələn sivilizasiya müasir dünyada özünün postindustrial, informasion mərhələsinə çatmışdır. Sonuncunun daha bütöv ifadəsi «biliyə əsaslanmış cəmiyyət» hesab edilir. Sosiallığın ən çox inkişaf etmiş formasının nisbətən az inkişaf etmiş formaların aşkarlanması üçün açar olduğunu nəzərə alsaq, ümumbəşəri, qloballaşan sivilizasiyanın mənbəyinin müəyyənləşməsinin məna kəsb etdiyini görərik. Bu isə dünyanın müasir simasını dəyişən qloballaşma və informasiya inqilabının qarşılıqlı münasibətlərinin təhlili nəticəsində mümkündür. Təqdim olunan dissertasiya məhz yuxarıda sadalanan problemlərin araşdırılmasına həsr olunub. Azərbaycan fəlsəfəsi çərçivəsində oxşar tədqiqatın aparılmaması işin həm aktuallığını, həm də onun elmi yeniliyini şərtləndirir.

**Mövzunun işlənmə dərəcəsi.** Dissertasiya mövzusunun, müəyyən mənada, iki tədqiqat istiqamətinin kəsişmə nöqtəsində olduğunu qeyd etməliyik. Bu baxımdan mövzunun işlənmə dərəcəsi haqqında danışarkən aşağıda göstərilən ardıcıllıq gözlənilmişdir: a) qloballaşma; b) postindustrializm və informasiya cəmiyyəti; c) onların qarşılıqlı təsir və əlaqələrinin mümkün nəticələri.

XX əsrin ikinci yarısından nəzəri tədqiqatların diqqət mərkəzində olan qloballaşma fenomeni bir çox sosial və humanitar elmlərin tədqiqat predmetinə çevrilmişdir. Qloballaşma ilk olaraq iqtisadi-maliyyə aspektdə tədqiq olunsa da, sonradan buraya sosio-mədəni, elmi-texniki aspektlər də əlavə olunmuşdur. Qloballaşmanın fəlsəfi nöqteyi-nəzərdən tədqiqi isə məhz onun çoxaspektli fenomen olmasından, bu aspektlər arasında qarşılıqlı təsir və əlaqələrin öyrənilməsi zərurətindən törəmişdir.

Qloballaşma ilə bağlı aparılan tədqiqatları iki böyük qrupa ayırmaq olar. Birinci qrupa qloballaşmanı necə varsa, yəni onun mahiyyət, forma və zaman çərçivələrinin araşdırıldığı tədqiqatlar daxildir. İkinci qrup tədqiqatlar isə ənənəvi fəlsəfi problemlərin qloballaşma aspektində, yəni keyfiyyətcə yeni məkan və zaman daxilində müxtəlif konfiqurasiyalarda öyrənilməsini əhatə edir.

Qloballaşmanı iqtisadi-maliyyə aspektində Ç.M. Abbasov, D. Vəliyev, Z. Məmmədov, C. Stiqlits, E. Giddens, B. Lindsi, E.F. Avdokuşin, V.A. Los, A.İ. Neklassa, V.L. İnozemtsev, və s. alimlər yazdıqları əsərlərində tədqiq etmişlər[1].

Sosiomədəni, tarixi-coğrafi aspektdə aparılmış tədqiqatlar içərisində R. Aslanova, R. Ulusel, V.İ. Pantin, A.N. Çumakov, A.A. Mazrui və başqalarının əsərləri xüsusi elmi maraq doğurur[2].

Qloballaşma haqqında aparılmış tədqiqatlar içərisində onun sosial –siyasi və ümumfəlsəfi kontekstində öyrənilməsi böyük əhəmiyyət kəsb etmişdir. Məhz bu istiqamətdə aparılan tədqiqatlar qloballaşmanın dərindən təhlilinə, daha fundamental araşdırılmasına yol açmışdır. Bu tədqiqatlara S. Xəlilov, A. Şükürov, D. Held, Z. Bauman, İ. Vallerstayn, U. Bek, C. Bhaqvati, Q. Martin, X. Şuman, C. Soros, V. Kuznetsov, A.İ. Utkin, A.S. Panarin, V.L. İnozemtsev, A.N. Çumakov, və s. kimi tədqiqatçıların əsərləri aiddir[3].

İkinci qrup tədqiqatlar, əsasən, təbiət(ekologiya və digər qlobal problemlər), cəmiyyət(miqrasiya, demoqrafiya, sosial-siyasi transformasiyalar və s.) və təfəkkürdə(şüurun planetarlaşması) baş verən proseslərin yeniləşən dünyada, zamanın tələblərinə adekvat şəkildə təkrar öyrənilməsini ehtiva edir. Belə tədqiqatlar sırasında R. Mehdiyev, İ. Məmmədzadə, F. Əliyeva, V.V. Perskaya, T.Y. Sidorina, A.N. Çumakov, A.V. Nazarçuk və s. alimlərin əsərləri xüsusi yer tutur[4].

---

[1] Stiqliz C.E. Qloballaşma və onun doğurduğu narahatlıqlar. Bakı: İqtisadi islahatlar mərkəzi, 2004; Гидденс Э. Ускользающий мир: как глобализация меняет нашу жизнь. М.: «Вес мир», 2004; Иноземцев В.Л. Расколотая цивилизация: системные кризисы индустриальной эпохи// Вопросы философии, 1999, №5, с.3-18; Vəliyev D. Qloballaşma şəraitində Azərbyacanın dünya maliyyə bazarlarına inteqrasiyası: təmayüllər, problemlər, perspektivlər. B.: Azərbaycan Universiteti, 2006.

[2] Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004; Ulusel R. Mədəniyyətlərin ipək yolu. Bakı: Təhsil, 2003; Пантин В.И. Циклы и волны глобальной истории: Глобализация в историческом измерении. М.: Новый век, 2003.

[3] Xəlilov S.S. Şərq və Qərb: Ümumbəşəri ideala doğru. B.: "Azərbaycan Universiteti", 2004; Şükürov A.M. Qlobal- laşmış cəmiyyətlər: dünən, bu gün və sabah. B.: "Azərbaycan Universiteti", 2006; Валерстайн И. Конец знакомого мира: Социология XXI века. М.: Логос, 2004; Бек У. Что такое глобализация. М.: Прогресс –Традиция, 2001; Бхагвати Дж. В зашиту глобализации. М.: Ладомир, 2005; Сорос Дж. О глобализации. М.: Эксмо, 2004; Уткин А.И. Глобализация: процесс и осмысление. М.: Логос, 2002; Панарин А.С. Искушение глобализмом. М.: Эксмо, 2003; Чумаков А.Н. Метафизика глобализации. Культурно-цивилизационный контекст. М.: Реабилитация, 2006.

[4] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B.: "XXI Yeni Nəşrlər Evi",2005; Məmmədzadə İ.R. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin

Postindustrializm və informasiya cəmiyyəti haqqında ideyalar XX əsrin ikinci yarısından elmi dövriyyəyə daxil olmuşdur. Amerika iqtisadçısı F. Maxlup və sonradan fransız tədqiqatçısı J.-J. Servan-Şrayber ilk dəfə olaraq elmi-texniki inqilabın(ETİ) və birbaşa onun nailiyyəti olan informasiya-kommunikasiya texnologiyaların cəmiyyət həyatına dəyişdirici təsirinə diqqət yönəltmişlər. Onlar informasiyanın artıq iqtisadi resursa çevrildiyini xüsusi vurğulamışlar[5]. Yalnız bundan sonra bir sıra ölkələrdə inkişaf strategiyalarının hazırlanmasında göstərilən amillərə xüsusi diqqət yetirilmişdir. Lakin, yalnız inkişaf layihələrinin ayrı-ayrı prinsiplərini təşkil edən bu ideyalar sistemli nəzəriyyə formasını almamışdır. Yeni cəmiyyətin əsas ideya prinsiplərini ehtiva edən nəzəriyyəni hazırlayan və onu "postindustrial cəmiyyət" adlandıran amerika sosioloqu D. Bell olmuşdur. Sonra A. Turen, T. Stounyer, C. Martin, A. Toffler, Ö.Masuda, M. Kastels, F.Fukuyama və b. postindustrializm nəzəriyyəsini (bəzi hallarda fərqli adlandırmaqla) daha da zənginləşdirmişlər[6].

Bu istiqamətdə aparılan tədqiqatların sonrakı mərhələsində "postindustrial cəmiyyət" termini daha konkret –"informasiya cəmiyyəti" termini ilə əvəzlənir. Nəzəriyyəsini daha da inkişaf etdirən D. Bell artıq 1982-ci ildə yazdığı əsərində "informasiya cəmiyyəti" termınindən istifadə etmişdir[7].

İnformasiya cəmiyyəti haqqında amerikalı tədqiqatçı F. Uebsterin yazdığı "İnformasiya cəmiyyəti nəzəriyyələri" əsəri müəyyən anlamda antologiya kimi çıxış edir. Müəllif əsərdə H. Şiller, Y.Habermas, J. Bodriyyar, C.Vattimo, M.Poster, J.-F. Liotar kimi tədqiqatçıların bu mövzuda yazdığı əsərləri tənqidi təhlil etmişdir[8].

aktuallığı haqqında. B.: "Təknur", 2009; Чумаков А.Н. Глобализация и космополитизм в контексте современности.// Вопросы философии, 2009, №1,с. 32-39.

5 Махлуп Ф. Производства и распространение знаний в США. М.: Прогресс, 1966; Серван- Шрайбер Ж.-Ж. Американский вызов. М.: 1970.

6 Белл Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования. М.: Academia, 1999; Тоффлер Э. Третья волна. М.: АСТ, 2002; Масуда Ё. Компьютопия// Философия и социологическая мысль, 1993, №6, с.36-50; ;Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М.: ГУ ВШЭ, 2000; Фукуяма Ф. Великий разрыв. М.: АСТ, ЗАО НПП «Ермак», 2004.

7 Белл Д. Социальные рамки информационного общества/ Новая технократическая волна на западе. М.: Прогресс, 1986, с.330-342;

8 Уэбстер Ф. Теории информационного общества. М.: Аспект Пресс, 2004.



Qloballaşan və sürətlə dəyişən, qlobal problemlərin bəşəriyyəti təhdid etdiyi müasir dünyada cəmiyyətlər yeni inkişaf strategiyalarını hazırlayırlar. Bu zaman informasiya cəmiyyəti konsepsiyası modernləşmə, davamlı insan inkişafı və s. konsepsiyaları ilə vəhdətdə tədqiq olunur.R.Mehdiyev, Y.Rüstəmov, S.Xəlilov, S.Hüseynov, R.Əliquliyev, İ.Kərimli, Ə.Qaracaoğlu, Q.Behman, İ.D.Vaysband, V.S.Qrexnev, N.N.Moiseyev və s. əsərlərində informasiya cəmiyyəti və onunla bağlı problemlər ətraflı təhlil edilmişdir[9].

Yeni yaranan informasiya cəmiyyətinin mədəniyyət, təhsil, etika, iqtisadi-sosial, innovasiyaların tətbiqi problemlərinin öyrənilməsinə istiqamətlənmiş çoxsaylı tədqiqatlar aparılmışdır. T.Əliyev, İ.A.Lazarev, M. Randl, L.D.Reyman, S.N. Silvestrov və s. yazdığı əsərləri buna misal göstərmək olar[10].

Lakin qeyd edilməlidir ki, mövzunun ayrı-ayrı aspektləri üzrə çoxsaylı araşdırmalar aparılsa da, hər iki prosesin, yəni qloballaşma və informasiya cəmiyyətinin qarşılıqlı əlaqələri, qarşılıqlı təsirin dinamikası məsələləri, bütövlükdə bu qarşılıqlı təsir və əlaqələrin mümkün məntiqi nəticələrinin araşdırılması ayrıca tədqiqat obyektinə çevrilməmişdir. Dissertasiyada qarşıya qoyulan məsələlərin araşdırılması zərurəti də məhz buradan irəliyə gəlmişdir.

**Tədqiqatın obyektini** bütövlükdə götürülmuş qloballaşma və qlobal informasiyalaşma prosesləri təşkil edir.

**Tədqiqatın predmeti** qloballaşmanın daxili məzmununun və informasiya cəmiyyətinin sosial çərçivələrinin tədqiqidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi qloballaşma və qlobal informasiyalaşma şəraitində fərqli sivilizasiyalara aid cəmiyyətlər arasında inteqrasiya prosesinin öyrənilməsi, yaranmaqda olan keyfiyyətcə yeni, universal sivilizasiyanın genezisinin

9 Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. B.: "Şərq-Qərb", 2008; Xəlilov S.S. Elmi- texniki tərəqqi və onun iqtisadi nəticələri. B.: Elm, 1996; Hüseynov S.H. Davamlı insan inkişafının strateji istiqamətləri. B.: Adiloğlu, 2003; Бехманн Г. Современное общество: общество риска, информационное общество, общество знаний. М.: Логос, 2010; Вайсбанд И.Д. 5000 лет информатики. М.: Черная белька, 2010; Грехнев В.С. Информационное общество и образование // Вест. Моск. Унив-та, Сер.7. Философия, 2006, №6, с.88-107.

10 Əliyev T.Q. İnformasiyanın iqtisadiyyatı. B.: "Elm", 2008; Лазарев И.А., Хижа Г.С., Лазарев К.И. Новая информационная экономика и сетевые механизмы развития. М.: «Дашков и К*», 2006; Рейман Л.Д. Информационное общество и роль телекоммуникаций в его становлении // Вопросы философии, 2001, №3, с.3-9.

aşkarlanması və onun inkişaf perspektivlərinin müəyyənləşdirilməsi təşkil edir. Bu məqsədin həyata keçirilməsi istiqamətində aparılan fəlsəfi təhlilin qarşısında bir sıra kompleks vəzifələr durur. Bu vəzifələr aşağıdakılardır:

- qloballaşmanın obyektiv-tarixi proses olaraq əsaslandırılması, onun məzmununun aşkarlanması və tədqiqatın daha rasional aparılmasına kömək edəcək dövrləşdirilməsi;
- informasiya inqilablarının ümumi təsnifatı və onların qloballaşma prosesində yeri və rolu;
- postindustrial cəmiyyət nəzəriyyəsinin sosial-fəlsəfi mahiyyətinin aşkarlanması;
- informasiya cəmiyyəti modellərinin müqayisəli təhlili və onun ictimai-tarixi inkişafın zəruri mərhələsi kimi əsaslandırılması;
- sivilizasiya termininin fərqli izahlarının təsnifi, universal sivilizasiya anlayışının təyin edilməsi və onun genezisinin aşkarlanması;
- Azərbaycanın müasir qloballaşma prosesində yeri və rolunun müəyyənləşdirilməsi, ölkənin postindustrializmə keçidi və informasiya cəmiyyətinin qurulması problemlərinin öyrənilməsi.

**Dissertasiyanın elmi yeniliyi**: Tədqiqatın elmi yeniliyi bilavasitə problemin qoyuluşu ilə bağlı olmaqla yanaşı, həm də problemin meydana gəlməsini şərtləndirən hər iki: qloballaşma və qlobal informasiyalaşmanın tədqiqi ilə də əlaqədardır.

Dissertasiyanın göstərilən amillərlə müəyyən olunan elmi yeniliyi aşağıdakı müddəalarda əksini tapır:

-Fəlsəfi ədəbiyyatda qloballaşma ilə əlaqədar irəli sürülmüş bir çox təsnifatlar təhlil edilmiş və hazırkı şəraitdə qloballaşmanın obyektiv-tarixi proses kimi mahiyyətini aşkarlayan ən ümumi tərifinin verilməsinə cəhd göstərilmişdir. Tərifdə qloballaşma-subyektləri millət-dövlətlər (və yaxud, onların digər tarixi formaları) olan qlobal (planetar) cəmiyyətin sosial sıxlığının tədricən artması prosesi kimi səciyyələndirilir.

-İlk dəfə olaraq postindustrial cəmiyyət nəzəriyyəsi tarixi prosesin dövrləşdirilməsinin orijinal konsepsiyası kimi nəzərdən keçirilmiş və Ö.Kontun pozitivizm fəlsəfəsi bazasında tarixi prosesə pozitivist yanaşma kimi şərh edilmişdir.

-Universal sivilizasiya anlayışının məzmununa münasibət bildirilmiş və onun genezisinin araşdırılmasına ilk dəfə olaraq cəhd olunmuşdur.



-Azərbaycanın qlobal məkana inteqrasiyası və müasir inkişaf dinamikası çərçivəsində ölkənin informasiya cəmiyyətinə keçidinin yeni optimal modeli təklif edilmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. Tədqiqatın nəzəri əsasını dünyada tanınmış alimlərdən K.Yaspers, D.Bell, E.Toffler, Ö.Masuda, M.Kastels, A.Rakitov, A.Çumakov və başqalarının qloballaşma, postindustrializm və informasiya cəmiyyətinin problemlərinə həsr edilmiş əsərləri təşkil edir. Digər tərəfdən A.Toynbinin «Tarixin tədqiqi» əsəri müəllif tərəfindən araşdırılmış, əsərdə əksini tapmış metodoloji prinsiplərdən yaradıcı surətdə istifadə olunmuşdur. Dissertasiyanın mövzusu ilə əlaqədar müasir Azərbaycan və xarici ölkə ictimaiyyatşünaslarının tədqiqatları da elmi işin metodologiyasında mühüm rol oynamışdır. Bütövlükdə qarşıya qoyulan məqsədə nail olmaq və rasional nəticələr əldə etmək üçün müqayisəli təhlil, tarixilik və məntiqilik, sistemli yanaşma, struktur metodlardan istifadə olunmuşdur.

**Dissertasiyanın elmi-nəzəri və praktiki əhəmiyyəti** onun elmi yeniliyi ilə bilavasitə bağlıdır. Tədqiqat materialları və əldə edilmiş nəticələrdən sosial fəlsəfənin xüsusi bölmələri kimi öyrənilən «Qloballaşma», «Postindustrial cəmiyyət nəzəriyyəsi» və bütövlükdə tarixi prosesə fəlsəfi yanaşma, «İnformasiya cəmiyyəti» mövzularının və ayrıca fənn kimi tədris olunan «Davamlı insan inkişafı» üzrə mühazirə mətnlərinin, elmi- metodik vəsaitlərin hazırlanmasında istifadə oluna bilər. Mövzu ətrafında tədqiqat aparan tələbə, aspirant,elmi işçilər dissertasiya materiallarından yararlanması məqsədə müvafiqdir. İşdə təklif olunan müəyyən inkişaf modelləri strateji planda inkişaf layihələrinin hazırlanması və həyata keçirilməsində istifadə edilə bilər.

**İşin aprobasiyası**. Dissertasiya AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri" şöbəsində yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın əsas müddəaları müəllifin respublikada və xaricdə nəşr olunmuş elmi məqalələrində şərh edilmiş, elmi-praktiki konfranslarda və seminarlarda məruzə edilmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya giriş, üç fəsil, 6 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

İşin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi öz əksini tapmış, nəzəri-metodoloji əsasları, elmi və praktiki əhəmiyyəti, aprobasiyası və strukturu göstərilmişdir.

Dissertasiyanın **"Qloballaşma və informasiya inqilabı tarixi inkişafın qanunauyğunluğu kimi"** adlı birinci fəsli iki yarımfəsildən ibarətdir. **"Qloballaş- ma: mahiyyəti, formaları və dövrləşdirilməsi"** adlı birinci yarımfəsildə qlobal- laşma haqqında aparılmış tədqiqatlar müqayisəli təhlil olunmuş, onun obyektiv tarixi proses kimi məzmununu aşkarlayan tərifi verilmişdir.

Bu yarımfəsildə qloballaşmanın mürəkkəb xarakteri, çoxaspektliyi və daxilən ziddiyyətli proses olması onun haqqında fikirlərin rəngarəng palitrasını şərtləndirmişdir. Bir çox tədqiqatçılar qloballaşmanın obyektiv xarakterini inkar edərək, bu prosesin müəyyən güc mərkəzləri tərəfindən idarə edildiyini və konkret maraqlara xidmət etməsini vurğulayırlar[11]. Tədqiqat işində qloballaşmaya belə yanaşmalar təhlil olunaraq onların prosesin məzmununu təhrif etməsi vurğulanmışdır. Bu zaman D. Held, V.İ. Pantin və digərlərinin fikirlərinə istinad edilməklə qloballaşmanın obyektiv-tarixi göstərilmiş, E. Dürkheymin elmi dövriyyəyə gətirdiyi və konkret cəmiyyət daxilində bütün münasibətlər çoxluğunu işarələyən "sosial sıxlıq" anlayışından istifadə etməklə qloballaşmaya belə tərif verilmişdir: "Qloballaşma –subyektləri millətdövlətlər (və yaxud onların digər tarixi formaları) olan qlobal (planetar) cəmiyyətin sosial sıxlığının tədricən artması prosesidir". Bununla bərabər qloballaşma prosesinin fərqli ipostaslarda (formalarda) təzahür etməsi qeyd olunmaqla (coğrafi, iqtisadi, siyasi, sosiomədəni) onların bir-biri ilə qarşılıqlı əlaqə və təsirdə olması göstərilmişdir.

Qloballaşma prosesinin dövrləşdirilməsi, onun müəyyən mərhələlərə bölünməsi, bütövlükdə prosesin daxili inkişaf dinamikasının müəyyənləşdirilməsində, onun məzmunun aşkarlanmasında xüsusi əhəmiyyətə malikdir. Aparılmış tədqiqatlarda (D. Held və digərləri, A. Şükürov) problemə müxtəlif yanaşmalar olmuş, prosesin dövrləşdirilməsi fərqli meyarlardan çıxış etməklə verilmişdir.

Dissertasiyada tədqiqat işinin ümumi məntiqi strukturuna uyğun olan və rasional nəticənin əldə olunması məqsədilə problem yenidən

[11] Панарин А.С. Искушение глобализмом. М.: Эксмо, 2003.



nəzərdən keçirilmiş, proses bütövlükdə götürülməklə klassik və müasir mərhələyə bölünmüşdür. Birinci mərhələ bəşəriyyət yarandığı gündən XIX əsrin sonuna qədərki dövrü əhatə edir. Bu dövrdə baş vermiş lokal müharibələrin, müəyyən ticarət –iqtisadi əlaqələrin, xüsusilə böyük coğrafi kəşflərin dünyanın tədricən qloballaşmasında rolu göstərilmişdir. Lakin XX əsrdə baş vermiş bir çox planetar miqyaslı hadisələr (ETİ –nin gerçəkləşməsi, iki dünya müharibəsinin baş verməsi, dünya müstəmləkə sisteminin dağılması, BMT, BB, BVF kimi beynəlxalq təşkilatların yaranması və s.) qloballaşmanı daha da sürətləndirmiş, onun fenomenə çevrilməsinə səbəb olmuşdur. Göründüyü kimi, XX əsrdə baş vermiş qloballaşma prosesi əvvəlki dövrlərdən mahiyyət və gerçəkləşmə formasına görə tam fərqlənir. Deyilənlər nəzərə alınmaqla qloballaşma prosesinin klassik və müasir qloballaşma mərhələlərinə bölünməsi həm ontoloji, həm də qnoseoloji aspektdə məqsədəmüvafiq hesab olunmuşdur.

Birinci fəslin **"İnformasiya inqilabı qloballaşma amili kimi"** adlanan ikinci yarımfəslində tarixdə baş vermiş informasiya inqilablarının qloballaşma prosesinə təsiri araşdırılmışdır. Qeyd olunmuşdur ki, informasiya ictimai inkişafın materiya və enerji ilə yanaşı üç əsas fundamental baza elementindən biridir.

İctimai inkişaf prosesində informasiya mübadiləsinin xarakteri ciddi keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Daha radikal səciyyəli dəyişikliklər adətən "informasiya inqilabı" termini ilə işarələnir. Buna baxmayaraq nəzəri-elmi tədqiqatlarda "informasiya inqilabı" anlayışına iki fərqli məzmun verilir. Bəzi tədqiqatçılar (məs. A.İ. Rakitov) XX əsrdə baş vermiş elmi texniki inqilab nəticəsində kompüter texnologiyalarının sürətli inkişafını informasiya inqilabı adlandırırlar. Mahiyyətcə eyni mövqedən çıxış edən rus tədqiqatçısı A.N. Çumakov isə 1990-cı ildə fərdi kompüterlərin seriyal istehsalına başlanmasını elmi-texniki tərəqqi çərçivəsində baş vermiş informasiya inqilabı adlandırır.

İnformasiya inqilabı anlayışına verilən ikinci tərif isə, informasiyanın mübadilə və emalının texniki vasitələri ilə əlaqəli olmayıb, ümumiyyətlə bu prosesdə radikal dəyişikliklərlə bağlıdır. Azərbaycan tədqiqatçısı Ə. Rüstəmova görə: "informasiya inqilabı informasiya emalı sahəsində əsaslı çevriliş nəticəsində ictimai münasibətlərin dəyişməsi kimi başa düşülməlidir"[12]. Qeyd edək ki, elmi işdə hər iki yanaş-

[12] Rüstəmov Ə.M. İnformatika: Dərslik. Bakı: İqtisad Universiteti, 2002, səh. 11

ma nəzərə alınmaqla informasiya inqilabı anlayışı aşağıdakı kimi müəyyənləşdirilmişdir: informasiya inqilabı tarixi inkişaf prosesində informasiyanın toplanması, saxlanması, emalı və ötürülməsində baş vermiş radikal dəyişikliklərdir. Məhz bu prinsiplərdən çıxış etməklə bəşəriyyətin tarixi inkişafında baş vermiş beş informasiya inqilabı qeyd olunur: 1) dilin yaranması; 2) yazının meydana gəlməsi; 3) kitab çapı; 4) teleqraf, radio və televiziyanın ixtirası; 5) EHM –in yaranması.

Göstərilən təsnifatda əksini tapmış hər bir informasiya inqilabı obyektiv-tarixi proses olan qloballaşmanın gerçəkləşməsində özünəməxsus rola malik olsa da, onlardan yalnız sonuncu iki inqilab xüsusi əhəmiyyət kəsb edir. Dissertasiyada kommunikasiya vasitələrinin (teleqraf, radio, televiziya) ixtirasının qloballaşma prosesini sürətləndirməsi tarixi empirik faktlarla əsaslandırılır. Lakin, bununla yanaşı, beşinci informasiya inqilabının –EHM-in yaranmasının müasir qloballaşmanın əsas determinantı olması, bu prosesin fenomenə çevrilməsində başlıca rol oynaması xüsusi vurğulanır.

Baş vermiş informasiya inqilablarının qloballaşdırıcı amil kimi çıxış etməsində İnternetin yaranması xüsusi əhəmiyyətə malikdir. Qlobal informasiya infrastrukturunun meydana gəlməsi XX əsrin üçüncü rübünə təsadüf edir. Qlobal informasiya strukturlarına peyk rabitəsi, İnterneti törətmiş şəbəkə informasiya texnologiyaları aiddir. 1991-ci ildə "Ümumdünya şəbəkəsinin"(World Wide Web) meydana gəlməsi bütün planeti vahid informasiya məkanında birləşdirməklə, informasiyanın əldə edilməsi və yayılmasında keyfiyyətcə yeni imkanlar yaratdı. 1995-ci ildə İnternet böyük sıçrayışlı uğur əldə edir və istifadəçilərinin sayı 26 milyona çatır. 2003-cü ildə bu göstərici 689 milyon olur. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və bunun birbaşa nəticəsi olan Ümumdünya şəbəkəsinin genişlənməsi elektron poçtun adi poçtdan şəksiz üstünlüyünü təmin edir. Bu isə öz növbəsində obyektiv zərurətə çevrilmiş vahid interaktiv ünsiyyətin imkanlarını dəfələrlə artırır.

Belə nəticəyə gəlmək olar ki, informasiya inqilabı cəmiyyətin iqtisadi, elmi-texniki, ekoloji, sosiomədəni və s. sferalarının qloballaşması, inteqrasiya təmayüllərinin güclənməsi, vahid dünya birliyinin formalaşması və harmonik inkişafında əvəzsiz rola malikdir. Elmi-texniki nailiyyətlər, mədəni həyatda baş vermiş yeniliklər haqqında informasiyaların sürətlə yayılması milli sərhədlərin aradan qalxmasına,



insanlar arasında beynəlxalq ünsiyyət prosesinin asanlaşmasına səbəb olur.

İnformasiya texnologiyaları müəyyən çərçivə daxilində dərin tarixi, əxlaqı, dini-fəlsəfi və dünyagörüşü köklərə malik mədəniyyətlərin yaxınlaşmasına rəvac verir. Lakin bu heç də deindividualizasiya və tam akkulturasiya demək deyil. Söhbət Avropa mədəniyyətləri ailəsinin ABŞ, Yaponiya və digər Asiya ölkələrinin mədəniyyətləri ilə birlikdə tarixi inkişafın keyfiyyətcə yeni mərhələsinə keçməsindən gedir. Burada isə onların özünəməxsusluğu heç də itmir, əksinə daha da güclənir. Lakin bu tamamilə başqa platformada- informasiya sivilizasiyası platformasında baş verir.

Dissertasiyanın ikinci fəsli **"Postindustrializm və informasiya cəmiyyətinin nəzəri konsepsiyalarının təhlili"** adlanır. Bu fəsil də öz növbəsində iki yarımfəsildən ibarətdir. Fəslin **"Postindustrializm və tarixi prosesə pozitivist yanaşmanın mahiyyəti"** adlanan birinci yarımfəslində postindustrial cəmiyyət nəzəriyyəsinin genezisi və social-fəlsəfi mahiyyəti təhlil olunmuşdur.

"Postindustrializm" termininin elmi dövriyyəyə XX əsrin əvvəllərində daxil edilməsinə baxmayaraq, onu cəmiyyət haqqında bütöv nəzəriyyə kimi işləyib hazırlayan D. Bell olmuşdur. D.Bellin yeni yaranmaqda olan cəmiyyətin "sosial portretini" əks etdirən "Gələcək postindustrial cəmiyyət" kitabı 1973-cü ildə işıq üzü görsə də, onun məğzini təşkil edən əsas ideyalar əvvələr esse şəklində müxtəlif elmi-dövrü nəşrlərdə dərc olunmuşdur. Sonralar bu nəzəriyyə E. Toffler, A. Turen, T. Stounyer və digər qərb tədqiqatçıları tərəfindən inkişaf etdirilmişdir.

Bu yarımfəsildə postindustrial cəmiyyət nəzəriyyələri təhlil edilərək, məzmun fərqlərinə görə iki qrupda təsnif edilmişdir:

1) inkişafın keyfiyyətcə yeni mərhələsi;
2) ümumdünya tarixinin nəzəri interpretasiyasının mühüm anlayışı.

Dissertasiyada birinci bənd sonuncunun xüsusi halı kimi nəzərdən keçirilmiş və postindustrial cəmiyyət nəzəriyyəsi tarixi prosesin dövrləşdirilməsinin formasion, kulturoloji və sivilizasion yanaşmalardan fərqli, müstəqil nəzəriyyəsi kimi əsaslandırılmışdır.

Qeyd etmək lazımdır ki, tarixi prosesin "sənayeyəqərki" (aqrar) – "sənaye" (industrial) –"postsənaye"(postindustrial) triadası formasında dövrləşdirilməsini nəzərdə tutan postindustrial cəmiyyət nəzəriyyəsinin

social-fəlsəfi mahiyyəti haqqında tədqiqatçılar arasında ümumi razılıq yoxdur. Marksistlər bu nəzəriyyəni müasir kapitalizmin böhranı və bu böhrandan çıxış yollarının axtarışı kimi dəyərləndirirdilər[13]. Digərləri isə bu konsepsiyanı tarixi prosesə sivilizasion yanaşmanın müəyyən modifikasiyası adlandırırlar[14]. Hər iki yanaşmada müəyyən həqiqət yükü olsa da onlarla razılaşmaq olmaz. Fikrimizcə postindustrializm tarixi prosesə göstərilən yanaşmalardan fərqlənən müstəqil yanaşmadır.

Ümumiyyətlə, tarixi prosesin "üç hədli" bölgüsü ideyası müxtəlif zamanlarda C. Viko, A. Türqo və digərlərinin əsərlərində əksini tapıb. Lakin inkişafın üç mərhələsi ideyasını fransız filosofu Ö. Kont özünün sosioloji doktrinasının əsasına qoymuş və ona "böyük sosioloji və fəlsəfi qanun" mənasını vermişdir. Belə ki, bu qanuna görə, intellektual təkamül üç mərhələdən keçmişdir: teoloji, metafizik və pozitiv. Oxşar təkamül prosesi cəmiyyətin də inkişafında izlənilir. Burada bir mərhələdən digərinə keçid cəmiyyətdə elmin inkişaf səviyyəsi ilə şərtlənir. Sonradan məhz bu yanaşmanı inkişaf etdirən qərb tədqiqatçıları tarixi prosesi aşağıdakı mərhələlərə bölürlər: ənənəvi, sənayeyəqədərki (aqrar), sənaye (industrial), post-sənaye (postindustrial). Lakin əksər tədqiqatçılar birinci və ikinci mərhələləri eyniləşdirirlər. Onda tarixi proses üç mərhələdə göstərilir: sənayeyəqədərki (aqrar), sənaye (industrial), post-sənaye (postindustrial). Göründüyü kimi, postindustrial cəmiyyət nəzəriyyəsi öz fundamental şərhini Ö.Kontun pozitivist fəlsəfəsi çərçivəsində tapır. Buna əsaslanaraq onu tarixi prosesə pozitivist yanaşma adlandırırıq. Onun daxili məzmununu belə ümumiləşdirmək olar: 1) sənayeyəqədərki- o kənd təsərrüfatına, faydalı qazıntıların əldə edilməsinə, balıqçılıq, meşə tədarükü və digər təbii resursların mənimsənilməsinə əsaslanır; bu cəmiyyət mahiyyətcə hasil edicidir; 2) industrial cəmiyyət ilk növbədə istehsalçı xarakter daşıyır: o əmtəə istehsalı üçün enerji və maşın texnologiyalarından istifadə edir; 3) postindustrial cəmiyyət emaledicidir: burada informasiya və biliklərin mübadiləsi (məlumatın emalı) telekommunikasiya və kompüterlər vasitəsilə gerçəkləşdirilir.

[13]Гаузнер Н.Д. Теория постиндустриального общества и современный капитализм. Москва: 1979, 64 с.; Михеев В.И. Критика теории «постиндустриального общества». Москва: Знание, 1971, 47 с.

[14] Можейко М.а. Постиндустриальное общество/ новейший философский словарь. Мн.: Скакун, 1998, с.535-536



Göstərilən cəmiyyət tiplərinin heç biri digərini istisna etmir: postindustrial cəmiyyət özündə industrial cəmiyyət üçün xarakterik olan struktur və prosesləri saxlayır, industrial cəmiyyət isə öz növbəsində sənayeyəqədərki cəmiyyətdə əldə edilmiş nailiyyətləri inkar etmir.

Postindustrial cəmiyyət nəzəriyyəsinin tədqiqi inkişaf etməkdə olan ölkələr üçün zərurətə çevrilmişdir. Bu sahədə aparılmış tədqiqatlarda Qərb cəmiyyətlərinin inkişafında müasir təmayüllər və belə inkişafın digər ölkələr üçün mümkün neqativ nəticələri haqqında çoxsaylı məlumatlar ümumiləşdirilmişdir. Digər tərəfdən, bu tədqiqatlarda qabaqcıl ölkələrin təcrübəsi adekvat ifadəsini tapır. Bu təcrübələrin öyrənilməsi və tədqiqedilməsi inkişaf etməkdə olan ölkələrə gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək imkanı verir.

İkinci fəslin **"İnformasiya cəmiyyəti futuroloji konsepsiya və gerçəklik kimi"** adlı ikinci yarımfəslində informasiya cəmiyyəti konsepsiyalarının genezisi öyrənilməklə müqayisəli təhlil edilmiş, onların sosial-fəlsəfi mahiyyəti araşdırılmışdır. Postindustrial cəmiyyət nəzəriyyəsinə görə cəmiyyətlər inkişafında sənayeyəqədərki (aqrar), sənaye (industrial) və post-sənaye (postindustrial) mərhələlərindən keçirlər. Burada birinci və ikinci tip cəmiyyətlərin daxili məzmunu müəyyən dərəcədə onların adlarında əksini tapır. Lakin bunu postindustrial cəmiyyət haqqında demək olmaz. Əvvəla, industrial cəmiyyətdən sonra gələn cəmiyyətin adındakı «post» prefiksi qeyri- müəyyənlik üçün ciddi əsas verir. İkincisi, üçüncü sektor adlandırılan xidmət sferasının çoxistiqamətli (müxtəlif növ xidmətlərin mövcudluğu) olmasıdır. Üçüncüsü, və fikrimizcə ən əsası artıq tarixi gerçəkliyə çevrilmiş sənayeyəqədərki və industrial cəmiyyətlərdən fərqli olaraq postindustrial cəmiyyətin futuroloji (proqnostik) xarakterli olmasıdır. Bu səbəblərdən ayrı-ayrı tədqiqatçılar yeni yaranmaqda olan cəmiyyətə fərqli adlar vermişlər. Məsələn, «maariflənmiş cəmiyyət» (K.Fleksner), «risk cəmiyyəti» (U.Bek), «telematik cəmiyyət» (C.Martin), «şəbəkə cəmiyyəti» (M.Kastels), «texnotron cəmiyyət» (Z.Bjezinski), «kamil cəmiyyət» (D.Qabor) və s. Əksər tədqiqatçılar isə (o cümlədən, D.Bell) "informasiya cəmiyyəti" terminine üstünlük vermişlər.

Dissertasiyada informasiya cəmiyyəti konsepsiyalarının yaranmasında iki istiqamət fərqləndirilmişdir:

1) Cəmiyyətin sosiotexnoloji və iqtisadi təkamülünün müasir mərhələsinin təhlili nəticəsində meydana gəlmiş və obyektiv gerçəkliyi əks etdirən konsepsiyalar;

2) İctimai inkişafın cari təmayüllərindən çıxış etməklə yeni yaranacaq cəmiyyəti təsvir edən futuroloji konsepsiyalar.

Birinci istiqamət F.Maxlup və J.-J.Servan-Şrayberin əsərlərində əksini tapmışdır. Onlar cari təmayüllərindən çıxış etməklə ictimai inkişafın keyfiyyətcə yeni mərhələyə keçdiyini qeyd etmişlər. İkinci istiqamət isə daha çox XX əsrin ortalarında yaranmış və gələcək haqqında elm kimi təqdim edilən futurologiyanın inkişafı ilə bağlı olmuşdur. Belə ki, məhz futuroloji tədqiqatlar çərçivəsində ictimai inkişafın gələcək ssenariləri hazırlanmışdır. Xüsusilə, qlobal problemlərin kəskinləşməsi ilə şərtlənən industrial inkişafın böhranı alternativ inkişaf modellərinin hazırlanmasını şərtləndirmişdir. Belə modellərdən biri də postindustrial cəmiyyət nəzəriyyəsi çərçivəsində informasiya cəmiyyəti konsepsiyalarının hazırlanması olmuşdur.

Bununla yanaşı dissertasiyada tanınmış alimlər D.Bell, Ö.Masuda, E.Toffler və A.İ.Rakitovun təklif etdikləri informasiya cəmiyyəti konsepsiyaları müqayisəli şəkildə təhlil olunmuşdur. Təklif olunmuş konsepsiyaların əsas müddəaları ümumiləşdirilərək belə nəticə çıxarılmışdır ki, informasiya cəmiyyətinə keçid cəmiyyət həyatının və insan fəaliyyətinin əsas sferalarında ciddi transformasiyalara səbəb olur. Buradan çıxış etməklə informasiya cəmiyyətinin dörd əsas meyarı müəyyənləşdirilmişdir:

1) iqtisadi meyar; 2) texnoloji meyar; 3) məşğulluq sferası ilə əlaqədar meyar; 4) mədəni meyar.

**1. İqtisadi meyar**. Bu informasiyanın iqtisadi dəyərinin artımının nəzərə alınması ilə bağlıdır. Yəni əgər Ümumi Milli Məhsulda (ÜMM) informasiya biznesinin payı nəzərəçarpacaq dərəcədə artırsa, bu informasion iqtisadiyyatın yaranması anlamını verir. Deməli iqtisadi sferada informasiya aktivliyi aqrar və sənaye sahəsindəki fəaliyyəti üstələyirsə artıq informasiya cəmiyyətinə keçid reallaşmışdır. İqtisadi meyarı informasiyanın iqtisadi əhəmiyyətinin kəmiyyətcə təhlil edilməsi ilə müəyyənləşdirmək mümkündür.

**2. Texnoloji meyar**. XX əsrin 80-ci illərində yaradılmış və informasiya cəmiyyətini təsvir edən əksər konsepsiyaların mərkəzində texnoloji yeniliklər dayanır. Yeni texnologiyalar yeni dövrün başlanmasının əsas göstəricilərindən hesab edilir. Yeni texnologiyalar dedikdə kabel və peyk televiziyası, kompüter şəbəkələri, fərdi kompüterlər, ofis texnologiyaları, xüsusilə on-line informasiya xidmətləri nəzərdə tutulur. Burada başlıca ideya odur ki, böyük həcmli texnoloji



yeniliklər, onların cəmiyyətə böyük təsiri sosial yenidənqurmaya gətirməlidir. Əgər buxar qazanı, daxili yanma mühərriki, elektrik, toxuculuq dəzgahı kimi «ixtiralar seriyası» industrial cəmiyyəti xarakterizə edirdisə, informasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı informasiya cəmiyyətini xarakterizə edir.

**3. Məşğulluq sferası ilə əlaqədar meyar**. Burada əsasən əhalinin məşğulluq strukturu və onda müşahidə edilən dəyişikliklər nəzərdən keçirilir. Fərz edilir ki, məşğul əhalinin böyük əksəriyyətinin informasiya sahəsində çalışması informasiya cəmiyyətinin yaranmasına ciddi təsir göstərir. İstehsal sferasında çalışanların sayının azalmasına rəğmən xidmət sahəsində çalışanların artması fiziki əməyin «ağ yaxalıqların» əməyi ilə əvəzlənməsi kimi dəyərləndirilir.

**4. Mədəni meyar**. İndustrial cəmiyyətin yaratdığı «kütləvi mədəniyyətdən» fərqli olaraq, müasir mədəniyyət daha informativdir. Televiziya sürətlə inkişaf edir: videotexnologiyalardan, kabel və peyk kanallarından geniş istifadə edilir, rəqəmsal informasiya xidmətinin fəallığı getdikcə artır. Fərdi kompüterlərin çoxalması, İnternetə əlyetərlik və cib kompüterlərinin mövcudluğu bu sahədə sürətli ekspansiyadan xəbər verir. Yerli, milli və beynəlxalq radiostansiyaların sayı sürətlə artır. Kino ətraf informasiya mühitinin əsas elementidir və əvvəlki dövrə nisbətən daha çox – kinoteatr, televiziya, kasset və DVD-disklərdə seyr edilir (burada əsas amil kino məhsullarının kifayət qədər ucuz və əhalinin böyük əksəriyyəti üçün əlyetərli olmasıdır). İnformasiya cəmiyyətinin mədəni meyarı asanlıqla qəbul edilsə də, onun ölçülməsi kifayət qədər çətindir.

Qeyd edək ki, informasiya cəmiyyətinin yaranması üçün, hər dörd meyarın bütövlükdə gerçəkləşməsi zəruridir.

Dissertasiyanın **"Ümumbəşəri sivilizasiya və Azərbaycan"** adlanan üçüncü fəsli iki yarımfəsldən ibarətdir. **"Universal sivilizasiya gələcəyin mümkün ssenarisi kimi"** adlanan birinci yarımfəsildə qloballaşma və qlobal informasiyalaşma nəticəsində dünyanın sivilzasion mənzərəsində baş verən köklü transformasiyalar tədqiq olunmuşdur. İlk növbədə "sivilizasiya" termininin mənası araşdırılmış və üç qrupda təsnif edilmişdir: 1) bəşəriyyətin əldə etdiyi və insanın heyvanlar aləmindən ayrılaraq sosial inkişafın pillələri ilə yüksəlişini xarakterizə edən nailiyyətlərin məzmunu; 2) tarixi inkişafın müəyyən mərhələsində xüsusi tip cəmiyyət (A. Toynbi); 3) mədəniyyətə əks anlayış kimi götürülərək

onun böhran fazasını işarələyən kateqoriya. Burada sivilizasiya əsasən onun ikinci mənasında nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, sosio-humanitar elmlərdə ciddi müzakirələrin predmetinə çevrilmiş "qlobal sivilizasiya", "dünya sivilizasiyası", "mərkəzi sivilizasiya", "universal sivilizasiya" anlayışları heç də yenilik deyil. Bu anlayışlar haqqında XVIII əsrdə yaşamış Q.-T.Reynal, A.L.de Stal, İ.Q.Herder kimi mütəfəkkirlər söhbət açmışlar. Lakin XIX-XX əsrlərin qovşağında ictimai inkişafda lokal sivilizasiyaların əhəmiyyətinə həsr olunmuş fundamental əsərlərin (N.Y. Danilyevski, O. Şpenqler, A. Toynbi) yazılması "qlobal sivilizasiya" ( və yaxud "dünya sivilizasiyası", "universal sivilizasiya") anlayışını arxa plana keçirmişdir. Buna baxmayaraq XX əsrin ikinci yarısından qlobal problemlərin kəskinləşməsi, sivilizasiyalar arasında qarşılıqlı əlaqə və təsirlərin keyfiyyətcə yeni mərhələyə keçməsi universal sivilizasiya anlayışını yenidən elmi-nəzəri tədqiqatın mövzusuna çevirmişdir.

Bu yarımfəsildə lokal sivilizasiyaların meydana gəlməsinin nəzəri şərhini vermiş A.Toynbinin təklif etdiyi metodoloji prinsiplər təhlil edilərək, ondan gələcəyin mümkün ssenarisi kimi nəzərdən keçirilən universal sivilizasiyanın genezisinin müəyyənləşdirilməsində istifadə edilmişdir. Belə ki, A.Toynbiyə görə hər bir sivilizasiyanın genezisində "Çağırış və Cavab" dayanır. Lakin, bütövlükdə götürülmüş qloballaşma prosesini təhlil etməklə onun mümkün nəticələrini, daha konkret desək yarana biləcək yeni sivilizasiyanın xarakterinin aşkarlanması çətindir. Məhz bu baxımdan qloballaşma prosesinin özündə saxladığı alt proseslərin müəyyənləşdirilməsi zəruridir. Yeni yaranacaq sivilizasiya üçün "Çağırış" rolunu oynaya biləcək üç alt proses fərqləndirilmişdir: 1) modernizasiya; 2) mədəniyyətlərin unifikasiyası; 3) qlobal informasiyalaşdırma.

Modernizasiya bəzi qərb ölkələrinin XVIII-XIX əsrlərdə keçdiyi mürəkkəb xarakterli transformasiya olub aşağıda göstərilən prinsipləri ehtiva edir: yeniliyin ənənəvidən üstünlüyü; sosial həyatın dünyəvi xarakteri; tədrici (qeyri-siklik) inkişaf; demokratik sistemli hakimiyyət; kütləvi təhsil və s. Yuxarıda göstərilən prinsiplərin təsiri ilə, bu prosesi keçən qeyri-qərb ölkələrinin sivilizasion identikliyində də müəyyən transformasiyalar baş vermir.

Hər bir sivilizasiyanın konkret mədəni mahiyyəti ehtiva etməsi universal sivilizasiyanın genezisinin aşkarlanmasında mədəniyyətlərin unifikasiyasının öyrənilməsinin xüsusi rola malik olmasını göstərir.



Mədəniyyətlərin unifikasiyası dedikdə müxtəlif xalqların mədəni modellərinin stereotipləşməsi, bircinsləşməsi başa düşülür. Mədəniyyətlərin unifikasiyası mədəniyyətdə milli və regional xüsusiyyətlərdən qismən imtinanı tələb edən yeni texnologiyaların tətbiqinin, beynəlxalq əmək bölgüsünün yeni kombinasiyalarının yaranmasının nəticəsidir.

XX əsrdə baş vermiş beşinci informasiya inqilabı EHM və komputer texnologiyalarının yaranması və sürətli inkişafına rəvac verdi. Qlobal informasiyalaşdırma informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə formalaşan qlobal informasiya şəbəkələrinin və qlobal informasiya cəmiyyətinin yaranmasını bildirir. Dissertasiyada qlobal informasiyalaşdırmanın kortəbii yox, məqsədli şəkildə idarəedilən proses olduğu göstərilmiş və bu haqda qəbul edilmiş beynəlxalq sənədlər (Okinava xartiyası (2000), Cenevrə bəyannaməsi (2003), Tunis öhdəlikləri (2005)) təhlil olunmuşdur.

Elmi işdə əsas "çağırışların" təhlilindən sonra universal sivilizasiya anlayışı belə müəyyənləşdirilir: universal sivilizasiya-institusional "fövqəlsivilizasion" üstqurum olaraq, müxtəlif lokal sivilizasiyalara məxsus uğurla modernləşən cəmiyyətlərin virtual məkanda inteqrasiyasıdır. Universal sivilizasiyanın formalaşması iki həyati vacib problemin optimal həll variantı kimi çıxış edə bilər: 1) lokal sivilizasiyalar arasında mümkün münaqişələrin aradan qaldırılması; 2) texnogen sivilizasiyanın törətdiyi qlobal (xüsusilə ekoloji) problemlərin həll edilməsi.

Üçüncü fəslin **"Azərbaycan və informasiyalaşmış dünya"** adlanan ikinci yarımfəsildə Azərbaycanın qloballaşma prosesində iştirakı, qlobal informasiya məkanına inteqrasiyası və ölkədə informasiya cəmiyyətinin qurulması ilə bağlı problem və perspektivlər araşdırılmışdır. Hər üç istiqamətdə mövcud problemlərin obyektiv araşdırılması üçün Azərbaycanın XX əsr tarixinə qısa ekskurs edilmişdir. Bu yuxarıda göstərilən istiqamətlərin daha uzunmüddətli zaman intervalında nəzərdən keçirilməsi zərurətindən irəli gəlir. Belə ki, istər qloballaşma və qlobal informasiya məkanına inteqrasiya, istərsə də informasiya cəmiyyətinin qurulması təkcə Azərbaycanın qarşısında duran problem yox, bütövlükdə keçmiş SSRİ-nin göstərilən məsələlərə münasibətindən asılı olmuşdur.

Yalnız SSRİ dağıldıqdan sonra Azərbaycan Respublikası beynəlxalq hüququn müstəqil subyektinə çevrilmiş, dövlətçiliyini müntəzəm şəkildə inkişaf etdirməyə və milli maraqları qorumağa istiqamətlənmiş xarici siyasət həyata keçirməyə başlamışdır. Azərbaycanın müasir

qloballaşma prosesinə qoşularaq onun aktiv subyektinə çevrilməsi aşağıda göstərilən iki mühüm amillə şərtlənir:

1) Ermənistan Respublikasının Azərbaycana ərazi iddiası nəticəsində Ermənistan- Azərbaycan münaqişəsinin başlanması;

2) SSRİ-dən Azərbaycana miras qalmış iqtisadi geriliyin aradan qaldırılması üçün digər ölkələrlə bərabər qarşılıqlı iqtisadi münasibətlərin qurulması, ən əsası isə ölkəyə investisiya axımının təmin edilməsi.

Birinci amil Azərbaycanın siyasi qloballaşmasını zəruri etmişdirsə, ikinci amil iqtisadi qloballaşmanın determinantına çevrilmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdiyi ilk illərdən bir sıra beynəlxalq və regional təşkilatların, o cümlədən, İslam konfransı Təşkilatı (İKT, 1991). Birləşmiş Millətlər Təşkilatı (BMT, 1992), Müstəqil Dövlətlər Birliyi (MDB, 1993), Avropa Şurası (AŞ, 2001) və çoxlu sayda digər təşkilatlara üzv olmuş, NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlıq etmişdir.

Lakin ölkənin qlobal iqtisadi məkana inteqrasiyası onun inkişafını stimullaşdırmaqla yanaşı bəzi problemlər də yaradır. Onların vaxtında aşkarlanması və önləyici tədbirlərin görülməsi həyati vacib məsələlərdəndir. Dissertasiyada bu problemə xüsusi diqqət yetirilmiş, əsas istiqamətlər aşağıdakı kimi müəyyənləşdirilmişdir: ölkəmizin əsas təbii sərvəti olan karbohidrogen ehtiyatlarının hasil edilməsi, emalı və dünya bazarına çıxarılması məqsədilə dünyanın nüfuzlu şirkətlərinin respublika iqtisadiyyatına cəlb edilməsi; Azərbaycanın Avrasiya nəqliyyat sisteminə, TRASECA proqramına qoşulması; xarici investisiyaların iqtisadiyyatın qeyri- neft sektoruna cəlb edilməsi və xarici investisiyalı müəssisələrin yaradılması; xarici ticarətin inkişaf etdirilməsi və idxal -ixrac əməliyyatlarının genişləndirilməsi.

Ölkənin qloballaşma prosesində fəal iştirakı özlüyündə ictimai inkişafın qarantı ola bilməz. Dinamik dəyişən dünyada özünə layiqli yer tutmağa çalışan dövlətlər yeni-yeni inkişaf konsepsiyaları hazırlayırlar. Son illər Azərbaycanda bir çox yeni inkişaf strategiyaları hazırlanmışdır, o cümlədən, cəmiyyətin modernləşməsi və demokratikləşməsi, davamlı inkişaf və davamlı insan inkişafını ehtiva edən bir sıra konseptual tədqiqatlar aparılmışdır. Lakin bunu postindustrializm və informasiya cəmiyyətinin nəzəri-fəlsəfi problemləri haqqında demək olmaz. İnformasiya cəmiyyətinə keçidlə bağlı görülən tədbirlərlə yanaşı, bu istiqamətdə tədqiqatların aparılması intensivləşdirilməlidir.



Dissertasiyada ölkənin informasiyalaşdırılması və informasiya cəmiyyətinə keçidlə bağlı dövlət tərəfindən görülmüş tədbirlər ətraflı təhlil olunmuşdur. Bu, xüsusilə Azərbaycanda informasiya-kommunikasiya infrastrukturunun inkişafı üçün hüquqi, təşkilati, iqtisadi, sosial şəraitin yaradılması tədbirlərini nəzərdə tutur. Respublikamızda bu sahədə həyata keçirilən ən mühüm tədbirlər aşağıdakılardır: “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanunun, “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın(2003-2013-cü illər)” hazırlanmasını, “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramının” (“Elektron Azərbaycan”) qəbul edilməsi və s.

Məlumdur ki, informasiya cəmiyyətinin qurulması ilk növbədə elm və təhsilin inkişaf etdirilməsindən asılıdır. Bu baxımdan “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya” və bu Strategiyanın gerçəkləşdirilməsi ilə bağlı Dövlət Proqramını xüsusi qeyd etmək lazımdır. Bu sənədlərlə yanaşı, BMT-nin Avropa üzrə iqtisadi komissiyasının ekspertlərinin ölkədə informasiya cəmiyyətinin qurulması və “elektron hazırlığın” vəziyyəti haqqında rəyləri təhlil edilərək ölkədə informasiya cəmiyyətinin qurulmasının əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir: ümumi və xüsusi təhsil sisteminin informasiyalaşdırılması, insan potensialının mühüm xarakteristikası kimi çıxış edən səriştəliliyin, peşəkarlığın və yaradıcı bacarığın rolunun artırılması; informasiya və kommunikasiya xidmətlərinin, onlara uyğun infrastrukturun formalaşdırılması və inkişaf etdirilməsi; Azərbaycanda fundamental elm sahələrinin adekvat olaraq dövlət və qeyri- dövlət səviyyəsində maliyyələşdirilməsinin təşkili.

Yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi: informasiya və biliyin sosial-iqtisadi və mənəvi inkişafın gerçək resursuna çevrilməsinə; vətəndaş cəmiyyəti institutlarının möhkəmlənməsinə; vətəndaşların informasiyanı sərbəst əldə etmə, yayma və istifadə hüququnun təminatına; şəxsiyyətin özünüinkişaf imkanlarının genişlənməsinə kömək edə bilər.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqata yekun vurulur, əsas qənaətlər ümumiləşdirilir. Qloballaşma və qlobal informasiyalaşdırmanın qarşılıqlı təsir və əlaqələrinin gələcək mümkün perspektivləri müəyyənləşdirilir.

Dissertasiya işinin əsas məzmunu müəllifin respublika və xaricdə çap etdirdiyi aşağıda göstərilən məqalələrində və iştirak etdiyi ümum-

respublika elmi-nəzəri konfranslarındakı çıxışlarda əksini tapmışdır:

1.İctimai inkişaf prosesinin modelləşdirilməsinin bəzi aspektləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. №6, Bakı, 2008, səh.379 -384.

2.İnformasiya cəmiyyəti və mədəniyyət // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. №6, Bakı, 2009, səh.290 -294.

3.İnformasiyalaşdırma prosesinin sosial –fəlsəfi aspektləri // Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, №14, Bakı, Sentyabr -2010, səh.261 -267.

4.Universal sivilizasiyanın genezisi // Naxçıvan Dövlət Universiteti, "Elmi əsərlər", İctimai elmlər seriyası. №2(14), Naxçıvan, 2010, səh. 209 -212.

5.Azərbaycan qloballaşma prosesində: çağırışlar və cavablar / Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər (Gənc tədqiqatçıların 2 Fevral –Gənclər Gününə həsr edilmiş ümumrespublika elmi –praktik konfransının Materialları). Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2011, səh. 20 -21.

6.Qloballaşma prosesində informasiya inqilablarının rolu // Naxçıvan Dövlət Universiteti, "Elmi əsərlər", İctimai elmlər seriyası. №2(39), Naxçıvan, 2011, səh. 95 -98.

7.Теория постиндустриального общества (социально-философский анализ) // Мультиверсум. Філософський альманах. Вип.4(102). Киів, 2011, с.14-20.

8.İnformasiya cəmiyyəti davamlı inkişaf konsepsiyasının gerçəkləşməsi kimi / Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri(Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə və Müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr edilmiş beynəlxalq Konfransın materialları). Bakı, Azərbaycan Universitetinin Nəşriyyatı, 2011, səh.410-412.



**Эльшан Аскер оглы Байрамзаде**

**Глобализация и информационное общество: динамика взаимовлияния (социально-философский анализ)**

**Резюме**

Диссертация посвящена исследованию взаимодействия и взаимосвязи глобализации и информационного общества. Каждая эпоха в развитии человеческого общества характеризируется определенными процессами, обуславливающими ее развитие. В переживаемой нами современной эпохе такими процессами являются глобализация и информационная революция. Именно в ходе развития этих процессов определяется не только нынешнее состояние человечества, но и его будущее.

Диссертационная работа состоит из введения, трех глав, шести параграфов, заключения и списка использованной литературы.

Во «Введении» обоснована актуальность темы, исследована степень разработанности проблемы, указаны цели и задачи, отмечена научная новизна работы, раскрыты теоретико-методологические основы диссертации, даны научное и практическое значение, апробация и структура исследования.

В первой главе «Глобализация и информационная революция как закономерность исторического процесса» анализируются процессы глобализации, выявляются ее формы, сущность и представлена ее периодизация. Также исследуются различные типы информационной революции и раскрывается их влияние на глобализацию.

Во второй главе «Анализ теоретических концепций постиндустриализма и информационного общества» исследуется социально–философская сущность теории постиндустриального общества; указанная теория обосновывается автором как позитивистский подход к историческому процессу. Анализ концепций информационного общества, созданных на основе теорий постиндустриализма, позволил определить критерии формирования нового общества в различных сферах.

Третья глава работы «Общечеловеческая цивилизация и Азербайджан» анализирует взаимодействия и взаимосвязи глобализации и информационного общества, их возможное влияние на цивилизационную картину мира; также исследуется участие Азербайджана в глобализационном процессе и перспективы построение информационного общества в нашей стране.

В «Заключении» подводятся итоги исследования, обобщаются основные выводы. Делается попытка определить возможные перспективы развития взаимоотношений и взаимосвязи глобализации и глобального информационного общества.

**Bayramzade Elshen Asker oglu**

**Globalization and the Information Society:
the dynamics of interaction (social-philosophical analysis)**

**Summary**

Dissertation is devoted to the study of the interaction and the relationship of globalization and the information society. Every era in the development of human society is characterized by certain processes causing its development. In modern times we are experiencing, such processes are globalization and the information revolution. It was during the development of these processes depends not only on the present state of mankind, but also its future.

The thesis consists of an introduction, three chapters, six paragraphs, conclusion and bibliography.

In the “Introduction” the urgency of topics studied the degree of readiness of a problem , given the goals and objectives marked by the scientific novelty of the work, disclosed the theoretical and methodological bases of the dissertation, given the scientific and practical significance, testing and study design.

In the first chapter, "Globalization and the information revolution as the regularity of the historical process» analyzes the processes of globalization, reveals its form, nature, and is represented by its periodization. It also investigates the different types of information revolution and reveals the impact of globalization.

In the second chapter, “The analysis of the theoretical concepts of post-industrial and information society” examines social and philosophical essence of the theory of post-industrial society, said the theory is justified by the author as a positivist approach to the historical process. The analysis of the information society that are based on theories of post-industrialism, allowed us to determine the criteria for the formation of a new society in various fields.

The third chapter of the “universal civilization and Azerbaijan” analyzes the interaction and relationship of globalization and the information society, and their possible impact on the image of the world civilization , is also investigated Azerbaijan's participation in the globalization process and the prospects for building the information society in our country.

In the “Conclusion” summarizes the study, summarizes the main conclusions. An attempt is made to identify possible prospects of development of relations and interactions of globalization and the global information society.



**AMEA-nın mətbəəsində çap olunmuşdur
Tiraj-100**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

*На правах рукописи*

**ЭЛЬШАН АСКЕР ОГЛУ БАЙРАМЗАДЕ**

# ГЛОБАЛИЗАЦИЯ И ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО: ДИНАМИКА ВЗАИМОВЛИЯНИЯ
**(социально-философский анализ)**

**Специальность: 7207.01 –Социальная философия**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени доктора философии по философии**

**Баку – 2013**